**POL STRETERN**

# MÜQƏDDƏS AVQUSTİNLƏ 90 DƏQİQƏ

Tərcüməçi:
Əyyar Cəfərli

qanun nəşriyyatı

PAUL STRATHERN

# ST. AUGUSTINE IN 90 MINUTES

Böyük ilahiyyatçı Müqəddəs Avqustin xristian kilsəsinin müqəddəs atasıdır. Onun təlimi bir neçə yüzillik ərzində Qərb xristian kilsəsinin ideologiyasının əsasını təşkil edib.

Avqustin IV-V əsrlərdə yaşayıb. Şimali Afrikanın Taqasta şəhərində anadan olub. Onun ən məşhur əsərlərindən biri "Tövbə" adlanır. Bu, avtobioqrafik əsərdə müəllif öz həyatını mistik və mənəvi təcrübə baxımından təsvir edir. "Tanrı şəhəri haqqında" kitabı isə xristianlığın apologiyasına həsr olunub.

Avqustin fəlsəfəsində Tanrı hər bir ideyanın, düşüncənin mərkəzindədir. O, hər şeyin Tanrının iradəsindən asılı olması fikri ilə bir tərəfdən fanatizmə, digər tərəfdən isə gerçəkliyin irrasional yozulması ideyasına gəlib çıxıb. Tanrının mütləq əbədiliyi ilə maddi dünyanın dəyişkənliyi arasındakı fərqi göstərib. Bu anlayışların bir-birinə qarşı qoyulması xristian dünyagörüşünün əsaslarından birini təşkil edir.

Müqəddəs Avqustinin əsərlərində zaman, düşüncə, idrak, iman, ruh, dövlət və digər məsələlər haqqında da maraqlı mülahizələri var.

**Paul Strathern** **ST.AUGUSTINE IN 90 MINUTES**
**Pol Stretern** **MÜQƏDDƏS AVQUSTİNLƏ 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 72 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 15.11.2022

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Əyyar Cəfərli
Redaktor: Müqəddəs Şahbazov
Korrektorlar: Ayxan Ayvaz, Aygün Həsənova
Mətn dizaynı: Asifə Əfəndi
Texniki redaktor: Aygül Yelmarlı
Qapaq dizaynı: Rafael Qasım

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-396-6

© Qanun Nəşriyyatı, 2023
© Chicago: Ivan R.Dee, 1997

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# GİRİŞ

Bizim eradan əvvəl 322-ci ildə Aristotelin ölümü ilə fəlsəfənin qızıl dövrü başa çatdı. Bir vaxtlar ardıcıl mülahizələrin zənciri olan fikirlər ehkamlara və şərhlərə çevrildi. Fəlsəfi nəzəriyyələrə gəldikdə isə, iki əsas istiqamət mövcud idi; lakin onda çətin zaman olduğundan, onların heç biri optimal deyildi.

Bizim eradan əvvəl üçüncü yüzilliyin başlanğıcında Kiprdə anadan olan kitonlu Zenon stoiklər[1] fəlsəfəsini işləyib hazırladı. Zenon gəmi qəzasında qənaət edib yığdığı bütün pullarını itirənədək uğurlu tacir olub. Həmin vaxt o, kiniklər[2] fəlsəfəsi ilə maraqlanırdı. Onlar iddia edirdilər ki, maddi dəyə-

[1] Stoiklər – stoist fəlsəfəsi tərəfdarları.
[2] Kiniklər – eramızdan əvvəl dördüncü əsrdə təsis edilmiş, əxlaq normalarını inkar edən fəlsəfi məktəbin davamçıları.

rin heç bir əhəmiyyəti yoxdur. Bu iddiaya əsaslanan Zenon, özünün stoik fəlsəfəsini yaratdı. Bu adı o, şagirdlərlə məşğul olduğu Afinanın stoa – sütunlu arkadasından[1] götürüb. Zenon həyata stoist münasibətini əsaslandırırdı və bütün adamları iki qrupa bölürdü. Birinci qrup (stoiklər) müdrik adamlardan ibarətdir, onlar öz aqilliklərindən başqa heç nəyi qəbul etmirlər. Bütün yerdə qalanlarsa – sadəcə maraqsızdırlar, azmaraqlıdırlar.

Stoiklərə görə, aqillik ehtiraslardan qurtulmaq və şücaətli (cəsarətli, fəzilətli) həyat yaşamaqla bağlıdır: daima özünənəzarət, bədbəxtliyə qarşı dözümlülük və qərəzsiz davranış.

Stoiklər fəlsəfəsi yüz illər boyunca inkişaf etdi və axır ki, Romada, xüsusən də, ali əyanlar arasında tam məşhurlaşdı. Belələri müasir imperatorların şıltaqlıqlarına dözməyə məcbur olanlar və həyatda ümidi boşa çıxanlardı. Faciələr müəllifi Seneka stoiklərin təlimini hətta Nerona calamaq istəyirdi, ancaq imperator qızğınlıqla bu fəlsəfəni

[1] Tağ sırası.

öyrənmək istəmədiyini nümayiş etdirdi. Bizim eranın ikinci yüzilliyində stoisizm, nəhayət, imperator Mark Avreliy tərəfindən qəbul olundu. O, Dunayın o tayındakı barbarlara qarşı apardığı uzunmüddətli kampaniya haqqında özünün kifayət qədər mənasız və təşəxxüslü düşüncələrini yazdı. Digər fəlsəfi nəzəriyyələr yuxarıda qeyd edilən kiniklərin, eləcə də skeptisizm[1] fəlsəfəsinə qarışaraq inkişaf edirdi. Skeptiklər inanırdılar ki, onlar heç nə bilmirlər, ancaq, bununla belə, başqalarını öyrətməkdə heç bir təzad görmürdülər.

Stoiklərinkindən fərqlənən ən mühüm fəlsəfə bizim eradan əvvəl dördüncü əsrin ortalarında, ola bilsin ki, Samosda anadan olan Epikür tərəfindən yaradıldı. Epikür sonradan Afinaya köçüb, öz bağında məktəb yaradaraq, fəlsəfəsini öyrədib. Fəlsəfə epikürçülük kimi tanındı və bir çox cəhətdən stoikliyin əksi idi. Stoiklərin bütün kefdən, ləzzətdən üz döndərdikləri halda, epikürçülər inanırdılar ki, yaxşı yaşamaq

[1] Skeptisizm – obyektiv varlığın insan tərəfindən dərk edilə bilməsini inkar edən idealist fəlsəfi cərəyan.

lazımdır. Ancaq Epikür özü son dərəcə sadə həyatı yaxşı həyat sayırdı – çörək, su, bayramlarda da bir azca pendir, vəssalam. Onun məqsədi (ilk əvvəllər fəlsəfəsinin də məqsədi) iztirabsız həyata nail olmaq idi. Seksual həyat, sərxoşluq, təkəbbür və yüksək cəmiyyət həyatı başağrısından başqa bir şey deyildir. Bu, ağır süstlük və ümidsizlikdir – bir sözlə, iztirabdır. Ona görə də bütün bunlardan uzaq durmaq lazımdır. Bu nəzəriyyənin incə nöqtələrinə həssas olmayan romalılar, epikürçülüyü bəyənirdilər, ancaq öz təsəvvürlərindəki yaxşı həyatı təkid edirdilər. Buna isə çörək və sudan əlavə, daha çox şeylər daxil idi. Beləliklə, epikürçü fəlsəfə təhrif edilərək hamı tərəfindən qəbuledilən oldu.

Digər filosoflar ən çox öz böyük sələflərinin əsərləri ətrafında cəmlənmişdilər. Onlar şərh edir, təhlil edir, söz oynadırdılar. Belələri, ilk növbədə Pifaqor və Platonun davamçıları idilər. Onların arasında daha məşhuru platonizmdə dini cərəyan inkişaf etdirən və ona mistisizm xüsusiyyətlərini daxil edən Plotin di. O, platonizmdə dini

cərəyanı və ona mistisizmin əlavə edilməsini işləyib hazırlamışdı. Nəhayət, Plotinin fəlsəfəsi Platonun fəlsəfəsindən o qədər aralandı ki, yeni ad aldı – neoplatonizm. Ancaq bizim eranın ilk əsrlərinin ən mühüm hadisəsi xristianlığın yayılması oldu. O da Avqustin üzə çıxana qədər bütün ciddi fəlsəfənin inkişafının qarşısını aldı.

## MÜQƏDDƏS AVQUSTİNİN HƏYAT VƏ YARADICILIĞI

"Karfagenə gəldim; ətrafımda rüsvayçı şəhvət qazan kimi qaynayırdı... Duman cismani arzu və ehtiras bataqlığından mənim ürəyimi çulğalayır və sıxırdı..." Müqəddəs Avqustin seksin aludəsi idi və ya istəyirdi ki, biz buna inanaq. O, məşhur "Etiraf"larında özünü səhifədən-səhifəyə "palçıqda uzanıb şəhvət qoturunu daramaq" həzzinə qapılan "şər ehtirasların çirkin qulu" kimi qələmə verir. "Dəlicəsinə əxlaqsızlıq"ın faktiki nümunələrinin intizarında oxucu getdikcə artan məyusluqla səhifələri vərəqləyir. Belə ki, biz Karfagen qazanında Avqustinlə nə baş verdiyini dürüst bilmirik. Düşünürəm ki, bu adi tələbə sərgüzəştlərindən başqa bir şey deyildir.

Ancaq şübhə yoxdur ki, Avqustin intim həyatla bağlı problem yaşayıb. Onun güclü cinsi istəkləri olub və yəqin ki, sekslə məşğul olmaqdan ləzzət alıb. Bununla belə, ruhu ona amiranə impulslar göndərib, ondan saflıq tələb edib. Onun problemlərini həll etmək üçün təcrübəli psixoanalitiklə bir neçə seans, yəqin ki, bəs edərdi – lakin bu zaman fəlsəfə min beş yüz il ərzində yeganə məşhur simasından, böyük mütəfəkkirdən məhrum olardı. Axı Avqustin səhnəyə çıxanda Aristotelin ölümündən artıq 600 il keçmişdi; Avqustinin ölümündən, demək olar ki, 800 il keçəndən sonra da Foma Akvinski meydana çıxacaqdı.

Avqustin bizim eranın 354-cü ilində Romanın Numidiya (indi o, Əlcazairin şimal-şərqində Souk Axrasdır) əyalətinin kiçik Tarast şəhərində anadan olub. Onun valideynləri bizim qarşımızda kifayət qədər içki içən, orta sinfə mənsub ailə kimi dayanır. Əyyaş atası Patrikiydə bütün içki düşkünlərinə məxsus emosional pozğunluq əlamətləri vardı, bu da özünü qəzəbli hiddətlənmə formasında göstərirdi. Buna

görə də Avqustinin anası Monika içkiyə qurşanan iblisdən imtina edərək, dinə üz tutdu və öz dərdinin, ümidsizliyinin əlacını oğlunda gördü.

Avqustinin gənclik illəri ilə bağlı məlumatları biz onun "Etiraf"larından öyrənirik. Monika ilk başlanğıcdan balaca Avqustini sıxışdırır, hərçənd Avqustin heç vaxt öz anasına qarşı söz belə deməyə cürət etməyib, onun təngə gətirən puritan[1] xristianlığı kitabının ilk səhifələrini doldurur. "Körpəliyimin günahlarını mənə kim xatırladacaq?" – Avqustin soruşur və ağlayaraq ana südü tələb etdiyi üçün özünü qınayır. "... Mən balaca oğlan və böyük günahkaram", – o, özünün məktəbdə dərslərə marağı olmadığını tamamilə istehza etmədən yazır.

Avqustin yeniyetmə olarkən, həqiqətən də, "relsdən çıxır". Məktəbli dostları ilə birlikdə armud oğurlayır. Bu dəhşətli rəzalətdən sonra Avqustin vicdan əzabı çəkmənin fəslin sonuna qədər davam edən or-

[1] Puritan – əxlaq məsələlərində özünü çox ciddi və tələbkar aparan adam.

giyasına qapılır, bu da başçıya qədər gedib çıxır.

“Öz yıxılmağımı sevdim mən, çirkin ruh, sənin qalandan fəlakətə yuvarlanaraq”... və ilaxır. O elə bu ruhda da kitabın axırına kimi etiraflar edir: “Bu dolaşıq əyriliklərdən kim baş çıxardacaq? Onlar murdardırlar: mən onlarda dayanmaq istəmirəm, onları görmək istəmirəm”. İlahi, o nə barədə danışır? Psixoloji araşdırmalara meyilli oxucular gənc oğlanın “ağacdan armudları çırpan” obrazında simvolik eyhamlar tapa bilərlər, ancaq bu, səthi və məlumatsız izah olardı. Bu parçanın əsl mənfi qəhrəmanı, əlbəttə, anası idi.

Monikanın ailənin daxili həyatını idarə etməsinə şübhə yoxdur. Qadın hətta avam ərini ölümündən bir il qabaq xristianlığı qəbul etməyə inandıra bilib (təxminən, şübhəsizdir ki, bu, sərxoş vaxtının peşmanlığı olub). Məlum olanda ki, gənc Avqustin atasından bəzi pis vərdişləri götürüb, o, evdən qovulur, ancaq az vaxta: Monika ona caynağından qaçmağa imkan verməyib.

Bununla belə, Avqustin öz problemi ilə mübarizə aparmaqda davam edir. Ümidsizlikdən o, hətta Allaha belə müraciət etməyə hazır olur, təsirli şəkildə ona yalvarır: "İlahi, mənə əxlaq, paklıq ver – ancaq indi yox". O istəmirdi ki, Allah "dərhal məni eşitsin və dərhal da pis düşkünlükdən qurtarsın: mən onu boğmaq yox, yatırtmaq istəyirdim".

Avqustin qeyri-adi bacarığa malik oğlan idi, ona görə də Monikanın onunla bağlı böyük planları var idi. Patrikiy oğlunun Karfagendə təhsilini davam etdirməsi üçün öz ölümünə qədər kifayət qədər pul toplaya bilmişdi. Burada, Monikadan uzaqlarda, Avqustin fahişəxanalarda müəyyən təcrübə qazanmış və teatrı sevmişdi (sonradan "Etiraf"larda "qəribə dəlilik" kimi təsvir olunmuşdu). O daha sonra bir qadınla yaşamağa başlayır, onlar uzunmüddətli və sadiq məhəbbətlə bir-birlərinə bağlanırlar. Qadın ondan hətta "təsadüfi oğul" da qazanır. ("Etiraf"larda şəxsən qadına qarşı heç nə deyilmir; onların məhz davamlı şəkildə